Schweizerische Eidgenossenschaft
Confédération suisse
Confederazione Svizzera
Confederaziun svizra

**Swiss Agency for Development and Cooperation SDC**

EDF SBIIYF

**Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu (SBİİYF)**

**“Azərbaycan: vətəndaşların qlobal iqlim dəyişmələri ilə mübarizəyə necə töhfə verə biləcəyi barədə məlumatlılığın artırılması” layihəsi**

# *“Paris Sazişi üzrə öhdəliklərin mahiyyəti, yerinə yetirilməsinin indiki vəziyyəti və çağırışlar ”*

**İsa Əliyev**

**İqlim dəyişmələri üzrə müstəqil ekspert**

Bakı, Holiday İnn, 23 yanvar 2024

# Paris Sazişinin (PS) qəbul edilməsini şərtləndirən ilkin amillər

- ABŞ-nın Kioto Protokolunu ratifikasiya etməkdən imtina etməsi
- Çin və digər İnkişaf etməkdə olan ölkələrdə istixana qaz emissiyalarının kəskin artması
- Ölkələrin köhnə prinsiplər əsasında yeni razılaşma cəhdinin iflasa uğraması (Kopenhagen 2009)
- 6 ildən çox davam edən danışıqlar və qlobal iqlimdə gedən sürətli dəyişmələr.
- Bütün ölkələrə şamil edilməsi nəzərdə tutulan vahid yeni qlobal razılaşmanın hazırlanması haqqında qərar (Durban platforması 2011)
- Parisdən əvvəl bir sıra ikitərəfli müqavilələr: ABŞ/Çin və ABŞ/Hindistan.

# PS və onun mahiyyəti

- **Kioto Protokolunu əvəz etmək** üçün hazırlanmış və 12 dekabr 2015-ci ildə qəbul edilmişdir.
- **PS** atmosferdə karbon qazının azaldılması tədbirlərini tənzimləyən Kioto Protokolunun yerinə yetirilməsinin 2-ci dövründən sonrakı dövr üçün, yəni 2020-2030-cu illəri əhatə edən **beynəlxalq hüquqi sazişdir.**
- PS qlobal iqlim dəyişmələri ilə mübarizə üçün **bütün dövlətləri əhatə edən ilk beynəlxalq sazişdir.**
- **PS məcburi beynəlxalq hüquqi** saziş olsa da, öhdəliklərin yerinə yetirilmədiyi halda heç bir **sanksiya nəzərdə tutulmur.**
- **İnkişaf etməkdə olan ölkələrə davamlı və artan beynəlxalq yardımın** göstərilməsi PS-nin əsas prinsiplərindəndir

# PS üzrə öhdəliklərin məzmunu

- PS-nin Milli Səviyyədə Müəyyən edilmiş Öhdəliklər və Aşağı karbonlu inkişaf strategiyaların **(AKİS)** hazırlanması kimi **iki kritik elementi** vardır.
- Ölkələr **elan edilmiş ümumi məqsədə** nail olmaq üçün öz töhfələrini fərdi qaydada müəyyən edir və **hər beş ildən bir nəzərdən keçirirlər.**
- 2030-cu ilə qədər **hər növbəti 5 il üçün gücləndirilmiş NDC-lərini təqdim etməlidirlər**.
- Ölkələr NDC-də PS-nin məqsədlərinə çatmaq üçün **mitiqasiya,** eləcə də artan temperatur təsirlərinə uyğunlaşmaq üçün **adaptasiya tədbirləri** barədə məlumat verirlər.
- **AKİS-lər** NDC-lərdən **fərqli olaraq, onlar məcburi deyil**. Onlar ölkələrə uzunmüddətli planlaşdırma və inkişaf prioritetləri kontekstində gələcək inkişaf üçün baxış və istiqamətlər verir.
- Ölkələr istənilən vaxt öhdəliyini gücləndirmək üçün **MDM-ə dəyişiklik edə bilər**.

## Atmosferdə emissiya büdcəsi (2011-ci ildən başlayaraq), Гт $CO_2$

| Hədd/ehtimal | < 1,5 °C | < 2 °C | < 3 °C |
|---|---|---|---|
| 0,66 | 400 | 1000 | 2400 |
| 0,50 | 550 | 1300 | 2800 |
| 0,33 | 850 | 1500 | 3250 |

## Cari emissiyaları saxlamaqla $CO_2$ emissiya büdcəsinin tükənməsi üçün vaxt çərçivəsi, illər ( 2014 -cü ildən başlayaraq.)

| Hədd/ehtimal | < 1,5 °C | < 2 °C | < 3 °C |
|---|---|---|---|
| 0,66 | 6,0 | 20,9 | 55,7 |
| 0,50 | 9,8 | 28,4 | 65,6 |
| 0,33 | 17,2 | 33,3 | 76,8 |

# Ölkələr üzrə fərqlilik

- Bütün ölkələr öhdəlik götürsələr də, PS-də KP-dəkinə bənzər **fərqlilik** vardır.
- **Bu Ümumi, lakin Diferensial Cavabdehlik və Müvafiq İmkanlar (CBDR&RC)** prinsipinin praktikada tətbiqi ilə bağlıdır.
- Ölkələr arasında əsas bölgü hələ də **inkişaf etmiş və inkişaf etməkdə olan** ölkələr prinsipinə əsaslanır və inkişaf etməkdə olan ölkələrə dəstək verir.
- Bununla belə, bütün ölkələr **bazar mexanizmlərindən** istifadə edə bilər **(PS maddə 6)**

# PS-nin məqsədləri

- PS-nin **əsas məqsədi** qlobal temperatur artımının ortalama **1.5⁰C-də məhdudlaşdırılması və ya heç olmasa 2⁰C-dən aşağı səviyyədə saxlanması** kimi əsas hədəflərə nail olmaqdan ibarətdir.
- **Bu məqsədlərə nail olmaq üçün dünya birliyi qlobal emissiyaları 2030-cu ilə qədər (43%) 2035-ə (60%) azaltmalıdır, 2050-ci ildə isə sıfır emissiyaya nail olunmalıdır.**
- Bu isə qlobal miqyasda **misli görünməmiş iqtisadi və sosial dəyişmələr** tələb olunur.
- **PS inkişaf etməkdə olan ölkələri maliyyə, texniki və bacarıqların artırılması** üçün bir çərçivə ilə təmin edir.
- **Inkişaf etmiş ölkələr inkişaf etməkdə olan ölkələrə maliyyə yardımında aparıcı rol** oynamalıdır.
- Proseslərin izlənilməsi üçün **2024-cü ildən** ölkələr mitiqasiya, adaptasiya tədbirləri və alınan maliyyə dəstəyi barədə **şəffaflıq hesabatı** verməlidirlər.

# PS-nin KP ilə fərqi

- Kioto Protokolundan fərqli olaraq,  PS-də bütün dövlətlər kəmiyyət öhdəliyi götürmüşdür.
- Öhdəliklər  aşağıdan-yuxarıya prinsipi ilə, öz potensiallarına və milli şəraitlərinə uyğun olaraq  yəni dövlətlərin özü tərəfindən müəyyən edilmişdir.
- PS KP-dan fərqli olaraq təkcə  mitiqasiyanı deyil, eyni zamanda iqlim dəyişmələrinin digər vacib istiqaməti olan adaptasiyanı da özündə ehtiva edir.
- Ölkələr  NDC-lərlə yanaşı Milli  Adaptasiya  Planlarını (MAP)  hazırlamalı,  təqdim etməli və vaxtaşırı yeniləməlidir. (KP-də CDM)

# PS üzrə Qlobal qiymətləndirmə

- Qlobal qiymətləndirmə ölkələr üçün PS-nin məqsədlərinə çatmaq yolunda birgə irəliləyiş əldə etdiklərini və harada olduqlarını görmək bilmək üçün bir prosesdir.
- Qlobal qiymətləndirmə hər beş ildən bir keçirilir və ilk dəfə 1 ay əvvəl COP28-də keçirilmişdir.
- Dünyanın iqlim fəaliyyətinə dair boşluqları müəyyən etmək və irəliyə doğru daha yaxşı bir kurs hazırlamaq üçün birlikdə işləməyə ehtiyac böyükdür;
- PS-nin məqsədlərinə çatmaq üçün dünyanın harada olduğunun qiymətləndirilməsi sürətləndirilmiş qlobal fəaliyyətlərə zəmin yarada bilər;
- 2024-2025-ci illər üçün Tərəflər arasında etimadın yaradılması üçün dialoq hər zaman olduğundan daha vacibdir.

# Qlobal qiymətləndirmənin nəticələri

- Qlobal tullantıların 98%-ni təşkil edən iqlim öhdəlikləri (NDC) və emissiya boşluğunun bağlanması ilə NDC-lər hələ də 2,7 dərəcə C (bəzi proqnozlarda 3-4 dərəcə və daha çox) istiləşməni proqnozlaşdırır.

- Bəzi sahələrdə irəliləyiş müşahidə edilsə də, xalis sıfıra çatmaq və iqlim təsirlərinə uyğunlaşmaq üçün daha çox iş görmək lazımdır.

- Əksər NDC-lər qeyri-qənaətbəxş hesab olunur.

- Əlavə yumşaldılma potensialı üzrə imkanlar müəyyən edilmişdir;

# **Qlobal qiymətləndirmənin nəticələri** (ardı)

- Dünya birliyi ölkələri PS-də nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməsi yolu ilə hərəkət etmir.
- 2023-cü ildə sənayeləşmə dövründən (1750-ci il) əvvəlki ilə müqayisədə planetdə orta temperatur artımı **1,48 ºC** olmuşdur.
- Bu 8 il əvvəl PS-də razılaşdırılan ən iddialı hədəf olan **1.5ºC-yə** narahatedici dərəcədə yaxındır.
- Elm adamları imkanların həddindən artıq daraldığını və hətta planetin qısa müddət ərzində Paris hədəfini aşmasının "qaçılmaz olduğunu" bildirirlər.
- Bütün sistemlər və sektorlar üzrə **“bütün iqtisadiyyat, bütün cəmiyyət” yanaşmasına ciddi** ehtiyac var.

# Qlobal qiymətləndirmə və onun nəticələri (ardı)

- İnkişaf etməkdə olan ölkələrin NDC-in icra ehtiyacları ilə səfərbər olunan dəstək arasında uçurumun artması;
- Yeni və əlavə qrant əsaslı, yüksək güzəştli maliyyənin genişləndirilməsi kritik olaraq qalır;
- Ehtiyaclar hazırda 2030-cu ilə qədərki dövr üçün 5,8-5,9 trilyon ABŞ dolları həcmində qiymətləndirilir;
- Ölkələrin adaptasiya üzrə ehtiyacları 2030-cu ilə qədər hər il 215-387 mlrd. ABŞ dolları həcmində təxmin edilir;
- 2030-cu ilə qədər təmiz enerjiyə sərmayə qoyulması üçün təxminən 4,3 trilyon ABŞ dolları tələb olunduğu vurğulanır;
- Xalis sıfır emissiyaya nail olmaq üçün isə 2050-ci ilə qədər ildə 5 trilyon ABŞ dollarına çatdırılması;

# Qiymətləndirmə və irəli gələn çağırışlar

- NDC-lərin nəzərdən keçirilməsinə ehtiyac var və 2025-ci ildən sonrakı dövr üçün öhdəliklərə yenidən baxılmalıdır.
- Mövcud iqlim maliyyələşməsi artan çoxsaylı çağırışların öhdəsindən gəlmək üçün inkişaf etdirilməlidir.
- PS-nin qlobal istiləşməni 1,5 °C-də məhdudlaşdırmaq məqsədini canlı saxlamaq üçün konkret siyasətlər həyata keçirilməlidir.

# Qiymətləndirmə və irəli gələn çağırışlar (ardı)

- PS iqlim böhranına təcili reaksiya vermək üçün indi daha çox fəaliyyətlər tələb olunur
- Qlobal istixana qazı emissiyalarını 2019-cu il səviyyələri ilə müqayisədə 2030-cu ilə qədər 43%, 2035-ci ilə qədər daha 60% azaltmaq və 2050-ci ilə qədər qlobal miqyasda xalis sıfır CO2 emissiyasına nail olmaq üçün daha iddialı fəaliyyət və təsirlərin azaldılması üçün dəstək tələb olunur;
- Bu baxımdan MDM-lər çərçivəsində daha iddialı hədəflər qoyulmalıdır;

# Qiymətləndirmə və irəli gələn çağırışlar (ardı)

- Həddindən artıq gərginlik altında olan bir planet üçün birlik tələb olunduğu bir vaxtda bəzən bunun tam əksi müşahidə edilməkdədir.

- Qlobal iqlim böhranı üçün, uyğun olaraq qlobal həll yolları tələb olunur.

- Yavaş-yavaş istiləşməkdə olan Planetin iqliminin qorunması kimi həyati əhəmiyyət kəsb edən məsələdə fikirlərin fərqli olduğu müşahidə edilməkdədir.

# Qiymətləndirmə və irəli gələn çağırışlar(ardı)

- 1,5°C temperatur trayektoriyasına uyğun olaraq emissiyaların davamlı azaldılması ehtiyacını qəbul edir və növbəti qlobal səylərə töhfə verməyə təşviq edir:
- (a) 2030-cu ilə qədər bərpa olunan enerji potensialının üç dəfə artırılması və enerji səmərəliliyinin qlobal orta illik sürətinin iki dəfə artırılması;
- b) kömür enerjisindən imtina edilməsi üçün səylərin gücləndirilməsi;
- c) Sıfır və aşağı karbonlu yanacaqlardan istifadə etməklə sıfır emissiyalı enerji sistemlərinə nail olmaq üçün sürətləndirilmiş səylərin artırılması ;
- d) Enerji sistemlərində yanacaqlardan uzaqlaşmaq, elmi nailiyyətlərə uyğun olaraq 2050-ci ilə qədər xalis sıfıra nail olmaq üçün bu onillikdə fəaliyyətin sürətləndirilməsi ;
- e) sıfır və aşağı emissiyalı texnologiyaların, o cümlədən, bərpa olunan enerji, nüvə enerjisi, karbonun tutulması, utilizasiyası və saxlanması kimi texnologiyaların tətbiqinin sürətləndirilməsi;
- f) 2030-cu ilə qədər qeyri-karbon qazı emissiyalarının, o cümlədən metan emissiyalarının əhəmiyyətli dərəcədə azaldılması; Və s,

# Statistik məlumatlar

- https://di.unfccc.int/time_series
- https://di.unfccc.int/ghg_profile_non_annex1?_gl=1*k1tv1g*_ga*MTYwNzk1NzgzOC4xNjc1MzIzNDkx*_ga_7ZZWT14N79*MTcwNTE3MTM1MC42Mi4xLjE3MDUxNzI3NjEuMC4wLjA.
- https://ourworldindata.org/co2-and-greenhouse-gas-emissions

***Diqqətinizə görə***

***Təşəkkür edirəm!***